# Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Gəncəyə növbəti səfəri də şəhər sakinlərinə unudulmaz anlar yaşatdı





**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə təhsil, səhiyyə, eləcə də milli-mənəvi dəyərlərin qorunması istiqamətində həyata keçirilən layihələrin əhəmiyyəti danılmazdır. Bu səbəbdən ölkəmizin hər yerində, o cümlədən Gəncədə bu istiqamətdə görülən genişmiqyaslı işlər əhali tərəfindən böyük razılıqla qarşılanır.**






Mehriban xanımın Gəncə və gəncəlilərə göstərdiyi diqqət və qayğının əvəzi yoxdur. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə şəhərdə milli-mənəvi dəyərlərin qorunması sahəsində böyük layihələr həyata keçirilmiş, o cümlədən xalqımızın uzaq və qaranlıq keçmişinin öyrənilməsində müstəsna əhəmiyyəti olan tarixi abidələr bərpa edilmişdir. Şəhərdəki Cavad xan və Cəmərdqəssab türbələrinin, Gəncə memarlığının incilərindən hesab edilən Şah Abbas məscidinin təmir olunmasına və digər bu kimi layihələrin icrasına gəncəlilər böyük dəyər verirlər.





Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva martın 6-da növbəti dəfə Gəncəyə səfər etmişdir. Mehriban xanım, qızları Leyla Əliyeva və Arzu Əliyeva səfər çərçivəsində Gəncədə çoxsaylı tədbirlərdə iştirak etmiş, şəhər sakinləri ilə görüşmüşlər. Ölkənin birinci xanımı Ulu Öndər Heydər Əliyevin mərkəzi meydanda ucaldılan abidəsini ziyarət etdikdən sonra Gəncə şəhər 37 nömrəli tam orta məktəbdə aparılan təmir-bərpa işləri, həmçinin inşa edilən Gəncə Memorial Kompleksinin layihəsi ilə tanış olmuş, şəhərdəki 40 saylı körpələr evi-uşaq bağçasına, Gəncə Şəhər Birləşmiş Xəstəxanasının Perinatal Mərkəzinə, şəhərdəki Şah Abbas və Hüseyniyyə məscidlərinə, Aleksandr Nevski adına Rus Pravoslav Kilsəsinə baş çəkmişdir.

Gəncəyə hər səfəri sakinlər arasında razılıqla qarşılanan Mehriban xanım Əliyevanın bu gəlişi də gəncəlilərdə xoş ovqat yaratmışdır. AMEA-nın Gəncə bölməsinin sədri akademik Fuad Əliyev deyir ki, yarandığı gündən elm və təhsilə xüsusi diqqətlə yanaşan, bu sahənin inkişafını fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirən Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" kimi proqramlar həyata keçirərək ölkəmizdə təhsilin inkişafına öz dəstəyini əsirgəmir: "Məktəblərdə təmir-tikinti işləri, şəraitin yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən görülən işlərlə yanaşı, Heydər Əliyev Fondunun da həyata keçirdiyi layihələr təhsilin keyfiyyətinin yüksəldilməsində uğurlu nəticələrə səbəb olur. Fondun gördüyü tədbirlər sırasında Gəncədə reallaşdırılan layihələr də saysız-hesabsızdır. Ölkənin birinci xanımının Gəncəyə bu səfəri də yaddaqalan oldu. Onun təhsil, səhiyyə müəssisələrindəki görüşləri, verdiyi məsləhətlər söz yox ki, bu sahələrdə inkişafa əlavə təkan verəcək".



Gəncə Perinatal Mərkəzinin həkimi Sevda Bünyatzadə isə bildirdi ki, uzun illərdir səhiyyə sahəsində işləyir: "Bu müddət ərzində Heydər Əliyev Fondunun Gəncə səhiyyəsinə göstərdiyi xidmətin dəfələrlə şahidi olmuşam. Fondun prezidenti Mehriban xanım Əliyeva Gəncəyə hər səfəri zamanı mütləq səhiyyə ocaqlarında olur, onların problemləri ilə maraqlanır. Uşaqların sağlamlığı üçün öz tövsiyələrini verən Birinci vitse-prezident yeri düşəndə səhiyyə ocaqlarının tibb avadanlıqları ilə təminatına da kömək göstərir. Onun diqqət və qayğısı ilə mənim işlədiyim xəstəxana da əsaslı təmir edilmiş, ən müasir avadanlıqlarla təmin olunmuşdur. Birinci xanımın bu səfəri də unudulmaz oldu. O, Gəncə Perinatal Mərkəzə müasir tibb avadanlıqları hədiyyə etdi. Bundan başqa, yeni doğulmuş körpələri ziyarət edərkən anaları fondun hədiyyələri ilə sevindirdi. Bütün bunlara görə kollektivimiz adından Mehriban xanıma minnətdarlığımı bildirirəm".

37 nömrəli məktəbin tarix müəllimi Bəyanət Hüseynov: "İşlədiyim məktəb son illər qəzalı vəziyyətə düşmüşdü. 1969-cu ildə istifadəyə verilmiş tədris ocağında 700-dən çox şagird təhsil alırdı. Sağ olsun Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva. Vəziyyəti öyrəndikdən sonra 2024-cü ilin sentyabr ayında fondun köməyi ilə təmir-bərpa işlərinə başlanıldı. Gəncəyə növbəti səfəri zamanı Mehriban xanım təmir-bərpa işləri ilə tanış olmaq üçün məktəbimizə gəldi. Təmirin gedişi ilə maraqlandı və əlavə tapşırıqlar verdi. İndi tədris ocağımızın istifadəyə veriləcəyi günü səbirsizliklə gözləyirik".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***